# “Müharibələr sərhədlərdə başlanır, sərhədlərdə də bitir”



**Xalq birliyi Vətən müharibəsində tarixi zəfər əldə etməyimizin kökündə dayanan əsas amillərdən biri oldu. Xalq-iqtidar birliyi sayəsində 30 ilə yaxın düşmən işğalı altında olan torpaqlarımız azadlığa qovuşdu. Bu müharibənin taktikası, strategiyası, istifadə olunan döyüş vasitələri artıq bir çox ölkələrin hərb sistemində öyrənilir. Azərbaycan əsgərinin, zabitinin igidliyi, şücaəti örnək göstərilir. Onlardan biri də II Qarabağ müharibəsi iştirakçısı, kapitan Azər Verdiyevdir.**

Müsahibim 1994-1998-ci illər ərzində indiki Bakı Ali Hərbi Məktəbində təhsil alıb. O, hələ kursant ikən – 1996-1997-ci illərdə Ağdamın Qərvənd kəndi istiqamətində, düşmənlərə ən yaxın məsafədə erməni təxribatlarının qarşısının alınmasında iştirak edib. Azər Verdiyev müxtəlif vaxtlarda Azərbaycan Ordusunda taqım komandiri, bölük komandiri, taborun qərargah rəisi kimi vəzifələrdə çalışıb. 2001-ci ildə xəstəliyi səbəbindən ordu sıralarından ehtiyata buraxılıb. Hazırda Qaradağ rayonunun Qobustan qəsəbəsində yerləşən 321 nömrəli tam orta məktəbdə hərbi rəhbər vəzifəsində işləyir.

Altı övlad atası kimi ailə vəziyyətinə və vaxtilə hərbi xidmətdə olan zaman xəstəlik üzündən tərxis edilərək 2-ci qrup əlil olduğuna görə ordu sıralarına qatılmağı məqbul hesab edilməsə də, Vətən müharibəsi başlananda ön cəbhəyə can atıb. 2016-cı ildə Aprel döyüşləri və 2020-ci ilin İyul hadisələri zamanı könüllü olaraq ordu sıralarına qatılmaq üçün müraciət edib. Müharibəni özünün iştirakı olmadan təsəvvür edə bilməyən Azər Verdiyev ilk günlərdən döyüşlərə qatılıb. “Müharibələr sərhədlərdə başlanır, sərhədlərdə də bitir”, – deyən qəhrəmanımız şükür edir ki, qələbə sevincini duyub, Qarabağın azadlığını görüb.

Goranboy rayonundakı N saylı hərbi hissəyə yola salınan hərbçimiz qısamüddətli təlimlərdən sonra, orada komplektləşdirilmiş birləşmələrin tərkibində Murov və Suqovuşan istiqamətinə yollanıb. “Vətən müharibəsi dövründə olduqca savadlı zabit heyəti ilə rastlaşdım. Heç birini tanımırdım. Lakin qısa zamanda elə doğmalaşdıq ki, sanki illərdir bir kənddə, bir məhlədə böyümüşük. Vətən müharibəsi günlərində hər bir əsgərimiz bir qəhrəman idi. Mükəmməl, yeni texnologiyalarla və ən müasir silahlarla təchiz olunmuş ordumuza əyani şahidlik etdim. Yenilməz Azərbaycan Ordusunun qarşısında ermənilər məğlub olmağa məhkum idilər”.

Müsahibim dəfələrlə təhlükə ilə üz-üzə qaldıqlarından da danışdı: “Oktyabrın əvvəlləri idi, Ballıqaya ərazisində yerdəyişmə edirdik. Düşmən bizim dislokasiya yerimiz barədə məlumatlanmışdı. Səhər saat 6 radələrində qəfildən artilleriya mərmiləri ilə atəşə tutulduq. Cəsarət, bilik və bacarığımız sayəsində mühasirədən çıxa bildik. Mən yüksək manevr edərək əsgərlərimi oradan çıxardım. Biz həmlə bölüyü idik, amma azad olunmuş ərazilərin mühafizəsini yüksək səviyyədə təşkil edə bilmişdik”.

Həmsöhbətim öz əsgərləri haqqında da ehtiramla danışdı. Onlardan biri, Goranboy rayon sakini, 35 yaşlı Anar Eyyubov idi: “İki gün hərbi komissarlığın qarşısında yatıb, evinə getməyibmiş ki, cəbhəyə göndərsinlər. Anarın atası 1992-ci ildə şəhid olub. Şəhid oğlu müharibədə seyirçi qala bilməzdi. Digər əsgərlər də mərd, qorxmaz uşaqlar idi. Komandir onlara hər zaman “Əsgər, irəli” deyil, “Əsgər, arxamca!” deyib”. Həmlə bölüyünün komandiri yaxın qohumlarından 17 şəhidi olan həmyerlisi, Mingəçevir sakini, tabor komandiri Mübariz Novruzov haqqında maraqlı xatirələrini danışdı: “Mingəçevir ilk dəfə atəşə tutulanda onların evinə böyük bir mərmi düşmüşdü. Necə olmuşdusa, məlumat ona çatmışdı. Ailəsinə zəng edib demişdi ki, nə badə evdən çıxıb harasa gedəsiniz. İnsanlar düşünər ki, hərbçi ailəsi qaçır”.

Zabit Azər Verdiyev düşmənin fitnəkarcasına qurduğu planlarından, eləcə də insanlığa və müharibə qanunlarına sığmayan hərəkətlərindən də danışdı: “Düşmən təkcə mülki əhaliyə atəş açmaqla, mülki infrastrukturları dağıtmaqla müharibə qanunlarının tələblərini pozmurdu. Azərbaycan Ordusunun şəhid olmuş hərbçilərinin torpaqla təmas olan hissəsinə qumbaralar yerləşdirirdilər. Arama-tarama işləri zamanı bunun şahidi olduq. Təhlükəsizlik tədbirlərinə əməl edərək meyitin ayağına kəndir bağlayıb çəkirdik ki, elə “sürpizlərlə” qarşılaşdığımız zaman əlavə itkilərimiz olmasın”.

Kapitan Zəfər bayramının yaşatdığı iftixar dolu hisslərini də ifadə elədi. Bildirdi ki, bu qələbəni bizə yaşadan hər kəsə – Ali Baş Komandana, şəhidlərimizə, müzəffər ordumuza, xalqımıza minnətdaram. Biz tək döyüşlərdə yox, həm də siyasi müstəvidə qələbə qazandıq. Bu qələbəni, ilk növbədə, böyük sərkərdə olan Ali Baş komandanımızın sayəsində qazandıq.

Azər Verdiyev “Hərbi xidmətdə fərqlənməyə görə”, “Suqovuşanın azad olunmasına görə”, “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.

**Rizvan FİKRƏTOĞLU,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2022.- 6 noyabr.- S.9.